# Şəhid Teyyublu Çərkəzin şəhadətə ucaldığı gündən 3 il ötür

**Oktyabrın 24-də torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizdən biri kiçik çavuş Teyyublu Çərkəz Vidadi oğlunun şəhadətə ucaldığı gündən üç il ötür.**

Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, Qaradağ rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Emil Abbasov, şəhidin ailə üzvləri, yaxınları, qazilər, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, rayon icra hakimiyyəti başçısının müavinləri, şöbə müdirləri və ictimaiyyətin nümayəndələri oktyabrın 24-də şəhid olmuş Teyyublu Çərkəz Vidadi oğlunun Şonqar qəsəbəsində yerləşən məzarını ziyarət edib, məzarın üzərinə gül dəstələri qoyub, şəhidin ailəsinə baş çəkiblər.





Şəhid Teyublu Çərkəz Vidadi oğlu 1996-cı ilin fevral ayının 1-də Lerik rayonunun Züvüc kəndində anadan olmuşdur. Onun uşaqlıq illəri doğulduğu kənddə keçib.

2003-cü ildə şəhid Bünyadəli Pələngov adına Züvüç kənd tam orta məktəbin 1-ci sinfinə getmiş, 2014-cü ildə orta təhsilini başa vurduqdan sonra valideynləri ilə birgə Bakı şəhərinə köçüb. Həmin ilin yayında Çərkəz Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb və Murov dağda yerləşən "N" saylı hərbi hissəyə göndərilib. 2016-cı ildə xidmətini nöqsansız başa vuraraq ehtiyata buraxılıb

Torpağına, Vətəninə böyük sevgisi olan Çərkəz yenidən müddətdən artıq xidmət etmək qərarına gəlir və 2019-cu ildə könüllü olaraq kiçik çavuş rütbəsində hərbi xidmətə yola düşür. Həmin ildən etibarən Bakı şəhəri Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə top komandiri vəzifəsində xidmət etməyə başlayıb.

Azərbaycan Ordusunun kiçik çavuşu Çərkəz Teyyublu 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak etmiş, 2020-ci il oktyabrın 21-də Füzuli döyüşləri zamanı şəhid olmuş, Qaradağ rayonunda Qızıldaş qəsəbəsindəki Şonqar yaşayış massivi qəbirstanlığında dəfn olunub

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Çərkəz Vidadi oğlu Teyyublu ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə","Füzulinin azad olunmasına görə" və "3-cü dərəcəli Xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

**Allah rəhmət eləsin!**

**Vüqar MUSAYEV**

Azad Azərbaycan.- 2023- cü il.- 26 oktyabr.- S. 2.- № 35.